# Ekologiya mühəndisliyi ixtisası

**Ekologiya mühəndisliyi** ixtisası – texnika, ətraf mühit və sosial sfera arasında qarşılıqlı əlaqəni harmonizasiya edən, atmosfer, hidrosfer və litosfer çirklənmələrinin insan sağlamlığına mənfi təsirini nəzarətdə saxlamağı bilən, tullantısız texnologiyaların işlənib hazırlanmasını həyata keçirməyi bacaran, toksiki tullantıların canlılara, biosferə təsir xüsusiyyətlərini, biosferin təbii tarazlığının pozulmasına mane olmağa çalışan, təbiətə sahib olduğunu geri qaytarmağı bacaran, yüksək texnoloji inkişaf səviyyəsi vasitəsilə istənilən sahədə ekoloji ekspertiza və layihələndirməni bacaran və innovativ düşünmə qabiliyyətinə malik mütəxəssislər hazırlayır. Bu ixtisasa yiyələnmiş kadrlar aşağıdakı sahələri üzrə fəaliyyət göstərə bilərlər:

-Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və onun regional bölmələri
-Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
-Azərbaycan Resublikasının Müdafiə Nazirliyi
-Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi (SƏTƏM)
-Azərsu Açıq Səhmdar Cəmiyyəti və Azərsu Holdinq Açıq Səhmdar Cəmiyyəti
-Neft və kimya sənayesi şirkətləri
-Dağ – mədən fəaliyyəti göstərən şirkətlər
-Şəxsi şirkətlər (yerli və xarici şirkətlər)
-Universitetlər və xüsusi təlim mərkəzləri
-İnsan fəaliyyətinin bütün sahələri